


# Sərhədlərimizin keşiyində

## Dövlət Sərhəd Xidmətinin yaradılmasından 20 il ötür

**Sovetlər Birliyinin dağılması nəticəsində 1991-ci il oktyabrın 18-də "Müstəqillik haqqında" Konstitusiya Aktını qəbul etməklə Azərbaycan öz müstəqilliyini bərpa etmiş oldu.**

**Müstəqil dövlətin isə ən mühüm atributlarından biri onun sərhədlərinin mövcudluğu, bu sərhədlərin həmin dövlətin öz qanunları əsasında vətəndaşları tərəfindən qorunmasıdır. Hər bir ölkənin suverenliyi, toxunulmazlığı, ərazi bütövlüyü prinsipləri ölkənin sərhədləri ilə əlaqədardır.**

> *Azərbaycanın sərhədləri bərpa ediləcək və ərazi bütövlüyü təmin olunacaqdır.*
>
> **Heydər ƏLİYEV,**
> **Ümummilli lider.**

Respublikamızın dövlət sərhədləri, Azərbaycanın dövlət müstəqilliyinin beynəlxalq təşkilatlar, dünya dövlətləri və ilk növbədə BMT tərəfindən tanındığı və qəbul olunduğu andan müəyyən edilib. Bu, SSRİ dağılarkən ittifaqın tərkibində olan Azərbaycan Respublikasının sərhədləridir ki, ümumi uzunluğu 2773 kilometrə bərabərdir. Yəni, İran İslam Respublikası ilə 787 km, Türkiyə ilə 12,4 km, RF ilə 395 km, Gürcüstan Respublikası ilə 470 km və Ermənistan Respublikası ilə 1103 km təşkil edir.

Tarixi haqqımız olan müstəqilliyimizi bərpa etdikdən sonra əsrlər boyu milli dövlət quruculuğu sahəsində itirdiklərimizi bərpa etməyə başladıq. Milli dövlətin əsas dayağı olan ordu yaradıldı. Sərhəd Qoşunlarının formalaşma prosesi başlandı. 1991-ci il dekabrın 9-da Azərbaycan Respublikasının Milli Şurası "Azərbaycan Respublikasının Dövlət Sərhədi haqqında" qanun qəbul etdi. Həmin il dekabr ayının 16-da isə Azərbaycan Respublikasının Dövlət Sərhədini Mühafizə Komitəsi (DSMK) yaradıldı.

1992-1993-cü illərdə dövlət sərhədinin mühafizəsinin gücləndirilməsi sahəsində hökumət bir neçə qərar versə də, bu qərarların yerinə yetirilməsi lazımi səviyyədə təşkil olunmurdu. Səriştəsizlik, xüsusi ilə xarici qüvvələrin dağıdıcılıq fəaliyyəti ilk vaxtlar Sərhəd Qoşunlarının formalaşması posesində inamsızlıq yaradırdı.

Respublikamızda ordu quruculuğu, o cümlədən Sərhəd Qoşunlarının yaranma prosesi müxtəlif siyasi qüvvələrin hakimiyyət ehtiraslarının qızışdığı dövrlə üst-üstə düşmüşdü. Erməni təcavüzünə məruz qalan ölkəmizdə daxili siyasi vəziyyətin də qeyri-sabit olması, siyasi hakimiyyətdəki qüvvələrin naşılığı, bacarıqsızlığı Sərhəd Qoşunlarının formalaşmasına mane olur, sərhədlərimizin mühafizəsi işinin təşkili üçün əsaslı tədbirlərin həyata keçirilməsinə imkan vermirdi. 1992-ci il oktyabrın 9-dan etibarən DSMK Milli Təhlükəsizlik Nazirliyinin Sərhəd Qoşunları Baş İdarəsi kimi fəaliyyət göstərməyə başladı.

Müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyev 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasının çox ağır, çətin və mürəkkəb dövründə ictimai, siyasi, iqtisadi, mədəni həyatın bütün sahələrində olduğu kimi, ordu quruculuğu sahəsində də böyük işlər görməyə nail oldu. 1988-ci ildən etibarən avtomobil və dəmir yolu ermənilər tərəfindən bağlanan, iqtisadi blokadaya alınan, xarici aləmdən təcrid edilən muxtar respublika basqınlara və talanlara məruz qalır, sərhədyanı yaşayış məntəqələri erməni işğalçıları tərəfindən mütəmadi şəkildə atəşə tutulur, insanlar öldürülürdü. Ulu öndər Ali Məclisin sədri seçildikdən sonra 1991-ci il sentyabr ayının 6-da Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsi yaradılması barədə qərar verdi. Belə bir qərar verməklə uzaqgörən sərkərdə Azərbaycanın ilk peşəkar, vahid rəhbərliyə tabe olan milli ordusunun əsasını qoydu. 1993-cü ilin iyununda Azərbaycanda hakimiyyətə qayıdan dahi öndər Heydər Əliyevin müdrikliyi sayəsində ictimai həyatın bütün sahələrində olduğu kimi, dövlət sərhədinin mühafizəsində də mühüm dəyişikliklər baş verdi.

Milli Sərhəd Qoşunlarının formalaşdığı 1993-2002-ci illərdə dövlət sərhədlərinin etibarlı mühafizəsinin təşkili sahəsində böyük irəliləyişlərə nail olundu. Sərhəd Qoşunlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, maliyyə-təsərrüfat fəaliyyətinin nizamlanması, yeni yaradılmış sərhəd dəstələrində, sərhəd zastavalarında müasir tələblərə uyğun xidməti və yaşayış binalarının tikilib istifadəyə verilməsi prosesləri uğurla davam etdirildi. İqtisadi çətinliklərə baxmayaraq, Sərhəd Qoşunlarının nəqliyyat vasitələri, eləcə də rabitə avadanlıqları və xüsusi texniki vasitələrlə təminatı yaxşılaşdırıldı. Lakin bu proseslər də asanlıqla getmirdi. Sərhəd Qoşunlarının yaradılması prosesində qarşıya çıxan əsas problemlərdən biri ixtisaslı kadrların çatışmaması idi. Bu işdə ulu öndər Heydər Əliyevin yaratdığı Cəmşid Naxçıvanski adına hərbi internat məktəbinin yetirmələri köməyə çatdı. Bununla yanaşı, SSRİ Sərhəd Qoşunlarında xidmət edən azərbaycanlı zabit və gizirlərin, demək olar ki, hamısı könüllü olaraq Azərbaycan Sərhəd Qoşunlarında xidmətə daxil oldu...

2002-ci il iyul ayının 31-də ulu öndər Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin yaradılması barədə Fərman imzaladı. Dövlət Sərhəd Xidmətinin yaradılması və ona mərkəzi icra hakimiyyəti orqanı statusunun verilməsi ilə Azərbaycan sərhədlərinin fəaliyyəti keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Dövlət Sərhəd Xidməti qarşısında müasir dövrün tələblərinə uyğun olaraq yeni vəzifələr qoyuldu və sərhəd təhlükəsizliyinin təminatı məsələlərinin ən yüksək səviyyədə həll olunmasına başlanıldı.

2002-ci il oktyabrın 24-də sərhəd aviasiyası yaradıldı, DSX-nin balansına verilmiş təyyarə və vertolyotlar əsaslı təmir edilərək xidmətə cəlb olundu, sərhədin havadan mühafizəsinin təşkili, dövlət sərhədində baş verən hadisələrə çevik reaksiya verilməsi və şəxsi heyətin təyinat yerinə vaxtında çatdırılması, dağlıq ərazilərdə və dənizdə xilasetmə əməliyyatlarının aparılması üçün sərhəd aviasiyasının istifadəsi təmin edildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəyə rəhbərlik etməyə başladığı ilk vaxtlardan ulu öndər Heydər Əliyevin milli sərhəd siyasətini uğurla davam etdirərək sərhədçiləri və Sərhəd Qoşunlarını daim dövlət qayğısı ilə əhatə etdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ölkəmizin sərhədçiləri ilə çoxsaylı görüşləri Dövlət Sərhəd Xidmətinin inkişafına, ölkəmizin sərhədlərinin mühafizəsinə göstərilən diqqət və qayğının əyani təzahürüdür.

Hazırda Dövlət Sərhəd Xidmətinin idarəetmə sistemi xeyli təkmilləşdirilmiş, müasir radiorabitə və telekommunikasiya sistemlərinin tətbiqi genişləndirilmiş, Dövlət Sərhəd Xidmətinin aparatı ilə sərhəd dəstələri arasında peyk rabitəsi sistemi yaradılmışdır. Dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd nəzarətinin təşkili beynəlxalq standartlar səviyyəsinə qaldırılmış, sərhəd nəzarəti məntəqələrində sənədlərin yoxlanılması üzrə müasir tipli laboratoriyalar yaradılmışdır. Şəxsi heyət dövlət sərhədindən keçən şəxslər və nəqliyyat vasitələri üzərində etibarlı sərhəd nəzarətinin həyata keçirilməsi üçün müasir texniki avadanlıqla təchiz edilmiş, bütün sərhəd- keçid məntəqələrinin avtomatlaşdırılmış məlumat-axtarış sisteminə qoşulması sayəsində miqrasiya proseslərinin ciddi nəzarətə götürülməsi təmin olunmuşdur.

Dövlət Sərhəd Xidmətinin peşəkar heyətlə komplektləşdirilməsi üçün sərhəd zastavalarının atıcı və təminat qrupu komandirlərinin, miqrasiya və sahil mühafizəsinin kiçik mütəxəssislərinin hazırlıq kursları təşkil edilmişdir. Sərhəd Qoşunlarının döyüş hazırlığının gücləndirilməsi daim diqqət mərkəzində olan əsas məsələlərdəndir. Bu məqsədlə hərbi hissələrin təlim-tədris bazaları genişləndirilir, təlimin və tədrisin keyfiyyətinin yüksəldilməsi üçün zəruri tədbirlər həyata keçirilir.

Dövlət Sərhəd Xidmətinin beynəlxalq əlaqələri də genişlənir. Azərbaycan ilə NATO arasında "Sülh naminə tərəfdaşlıq" Proqramı çərçivəsində yaradılmış əlaqələr ardıcıl surətdə inkişaf etdirilir. DSX-nin nümayəndə heyətinin xarici ölkələrə, xarici ölkə mütəxəssislərinin Azərbaycana səfərləri təşkil olunur, qarşılıqlı, birgə əməkdaşlıq məsələlərinə dair sənədlər imzalanır. Dövlət Sərhəd Xidməti rəhbərliyinin təşəbbüsü və iştirakı ilə keçirilən beynəlxalq tədbirlər, görüşlər bir daha göstərir ki, Azərbaycan sərhədçiləri dünya təcrübəsindən bəhrələnərək dünyaya inteqrasiya ilə irəliyə doğru getməkdədir. Bunu xarici tərəfdaşlarımız da təsdiqləyir.

Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının, Çevik Hərəkət Qüvvələrinin, Sahil Mühafizəsinin, Sərhəd Nəzarətinin formalaşdırılması və nümunəvi hərbi birləşmə səviyyəsinə yüksəldilməsi mühüm nailiyyətlərdəndir. 2017-ci ilin fevralında xidmətin Yevlax şəhərində yerləşən hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimində Sərhəd Xidmətinin son dövrdəki nailiyyətlərindən danışarkən Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev deyib: "2016-cı ilin aprelində əks-hücum əməliyyatı zamanı düşmənin müdafiə xəttinin, döyüş mövqelərinin, dislokasiya yerlərinin, komanda-dayaq məntəqələrinin, qərargahlarının darmadağın edilməsi zamanı keçirilən uğurlu əməliyyatlar düşməni döyüş əməliyyatlarını dayandırmağa məcbur etdi və bu qələbənin əldə olunmasında Azərbaycan sərhədçisi öz töhfəsini verdi".

2018-ci ilin dekabr ayında Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonları ərazisindən keçən hissəsindəki təmas xəttində yerləşən sərhəd döyüş postlarının və hərbi obyektlərin təhvil alınması, bu istiqamətdə dövlət sərhədinin müdafiəsinin həyata keçirilməsi əmrini almağı hər bir sərhədçiyə qürur hissi yaşatdı. Bu, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan sərhədçisinə etibar və etimadının növbəti ifadəsi idi.

Azərbaycan Respublikasının dövlət sərhədinin tam mühafizə altına götürülməsinin əsasını qoyan və Azərbaycan Sərhəd Mühafizəsi tarixində yeni səhifə açan bu tapşırığı ən yüksək səviyyədə icra etmək üçün Dövlət Sərhəd Xidmətinin hərbi potensialı ciddi səfərbər olundu, qısa müddətdə sərhəd döyüş məntəqələrində yüksək standartlara cavab verən xidməti və məişət şəraitinin təmin edilməsi istiqamətində işlər görüldü.

Bu gün dövlət sərhədində, sərhəd döyüş məntəqələrində, ağır iqlim və relyef şəraitində xidməti vəzifələrini böyük şücaət və əzmkarlıqla yerinə yetirən sərhədçilərin Ali Baş Komandana sədaqəti, döyüş ruhu, vətənpərvərliyi, düşmənə isə nifrəti hədsizdir. Elə bu ruhla da Azərbaycan sərhədçiləri Vətən müharibəsində çiyinlərində "Zəfərə doğru!" daşıdıqları müzəffər bayrağımızı Şuşada, Cəbrayılda, Zəngilanda, Ağdamda, işğaldan azad olunmuş digər ərazilərimizdə qürurla dalğalandırdılar.

Cəbrayıl rayonunda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissəsinin açılışında iştirak edən Prezident İlham Əliyevə məlumat verən Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev qeyd etmişdi ki, Vətən müharibəsi zamanı Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməklə, eyni zamanda, dövlət sərhədinin bərpası kimi çox mühüm bir missiyanı yerinə yetirdi. Silahlı Qüvvələrimizin tərkib hissəsi kimi Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti də yüksək peşəkarlıqla düşmənə sarsıdıcı zərbələr endirdi və onları torpaqlarımızdan qovdu.

Vətən müharibəsində sərhədçilərin rolunu dəyərləndirən Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Hər bir ölkənin sərhədi onun dövlət rəmzlərindən biridir. Azərbaycan öz sərhədlərini, ərazi bütövlüyünü tam bərpa edib. Bizim Silahlı Qüvvələrimiz rəşadət, qəhrəmanlıq göstərərək Vətən müharibəsində zəfər çaldılar. Sərhədçilərin ümumi zəfərimizdə rolu çox böyükdür. Mən bunu qiymətləndirirəm. Təsadüfi deyil ki, bir çox hərbçilər dövlətimizin yüksək orden və medalları ilə təltif edilmişlər".

Bəli, bu gün sərhədçilərimiz ölkəmizin dövlət sərhədlərini gecə-gündüz sayıqlıqla qoruyur.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**